“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir”
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

30 sentyabr 2015-ci il № 9 (231) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## Siyəzən rayonunda da yeni suvarılacaq torpaqlara Taxtakörpü-Ceyranbatan kanalından suyun verilməsinə başlanıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də «Samur-Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində Siyəzən rayonunda yeni suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib.

Dövlətimizin başçısı İlham Əliyev Taxtakörpü-Ceyranbatan kanalından Siyəzən rayonunda yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunu işə saldı.

Məlumat verildi ki, layihə zonasındakı 12 min 137 hektar sahənin 6 min 972 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 5 min 165 hektarda mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur. Yeni suvarılan torpaqların 2300 hektarında kollektor-drenaj şəbəkələrinin tikintisi layihələndirilib. Siyəzən rayonundakı 6 min 972 hektar torpaq sahəsi dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardır. Burada da suvarma üçün əsas su mənbəyi yeni inşa olunmuş Taxtakörpü-Ceyranbatan və Samur-Abşeron kanallarıdır. Layihə Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət ekspertizasının rəyi ilə təsdiq edilib.

Bildirildi ki, Dövlət Neft Fondundan ayrılan vəsait hesabına 2015-ci ilin əvvəlindən meliorativ tədbirlərin aparılmasına başlanılan iki sahədən ibarət olmaqla cəmi 1466 hektar ərazidə meliorativ tədbirlərin və suvarma şəbəkəsinin tikintisi işləri tamamlanıb. Yeni suvarılacaq torpaqların 24 hektarı dövlət, 1151 hektarı bələdiyyə və 249 hektarı xüsusi mülkiyyətdə olan torpaqlardır. Yeni suvarılacaq 1424 hektar torpaq sahəsinin 866 hektarında torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün kollektor-drenaj şəbəkəsinin tikintisi həyata keçirilib. Bu mərhələdə 42 hektar mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılıb. İlin sonunadək rayonun ərazisində əlavə olaraq 1738 hektar torpaq sahəsinin suvarılması təmin ediləcək ki, ondan 1115 hektarı yeni suvarılan torpaqlardır. Həmçinin 623 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq.

Yeni suvarılacaq torpaqların 58 hektarında kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub. Cari ildə Siyəzən rayonu üzrə ümumilikdə 3 min 204 hektar torpaq sahəsi istifadəyə veriləcək. Bunun 2 min 539 hektarını yeni suvarılan torpaqlar təşkil edəcək, eyni zamanda, 665 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. 2016-cı ildə isə 8933 hektar suvarılan torpaq sahəsinin istifadəyə verilməsi planlaşdırılır ki, bunun da 4433 hektarı yeni suvarılan əkin sahələri olacaq, həmçinin 4500 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. Bununla da layihənin tam başa çatdırlması nəzərdə tutulur. Bu torpaqların 1376 hektarında kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub.

**AZƏRTAC**

## SENTYABR AYININ RƏSMİ XRONİKASI



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəsinin Dövlət bayramı-Rusiya Günündə birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana səfər etməsinə ölkəmizdə böyük önəm verildiyini dedi və bu səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonundakı 189-190 nömrəli orta məktəbdə,Yasamal rayonundakı Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseyin binasında həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin



Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi ilə tanış olub.

Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə çıxış edib.

Qazaxıstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanadakı Müstəqillik sarayında keçirilən təntənəli mərasimdə iştirak edib.

Sentyabrın 11-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olub.



Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonundakı 5 nömrəli Bakı Peşə Liseyində həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınması mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də-Bilik günündə Bakının Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulan 148 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak edib.

Sentyabrın 15-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının xarici işlər naziri Feridun Sinirlioğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna səfərə gəlib. Dövlətimizin başçısı rayonda bir sıra obyektələrin, o cümlədən Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun açılışında iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Ağsu-Kürdəmir-İmişli avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində bu yolun Ağsu-Kürdəmir hissəsinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Ağsu rayonuna səfəri çərçivəsində İdman Kompleksinin açılışında iştirak edib.

Prezident İlham Əliyev sentyabrın 21-də Respublika Əlillərin Bərpa Mərkəzinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də dünya şöhrətli aktyor və rejissor Stiven Siqalı qəbul edib.

2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 23-də birinci iclası olub.

**AZƏRTAC**

# UĞURLAR VAR, AMMA GÖRÜLƏSİ İŞLƏR DƏ ÇOXDUR

**(Müəllimlərin ənənəvi sentyabr konfransından qeydlər)**

2014-2015-ci dərs ili rayonumuzun təhsil işçilərinin yaddaşına hansı hadisələrlə həkk olundu? Yeni dərs ilində qarşıda duran vəzifələr nələrdən ibarətdir? Təhsilin keyfiyyətinin yüksəldilməsi və müasir təhsil sisteminin qurulması istiqamətində hansı işlər görüləcəkdir?

Bütün bu sadaladığım suallarla bağlı rayonumuzun təhsil işçilərinin sentyabr konfransında ətraflı danışıldı. Mədəniyyət Sarayında keçirilən konfransda əvvəlcə Siyəzən rayon Təhsil Şöbəsinin müdiri Rəfail Hacıyevin 2014-2015-ci dərs ilinin yekunları barədə hesabat məruzəsi dinlənildi. O, ötən tədris ilinin də rayonumuz üçün çox uğurlu olduğunu bildirmiş, görülmüş işlərdən, qazanılmış uğurlardan ətraflı bəhs etmişdir. Belə ki, «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» Respublika müsabiqəsində C. Cabbarlı adına Siyəzən şəhər 1 saylı tam orta məktəb (direktor N. Mürvətov), M. Müşfiq adına Siyəzən şəhər 2 saylı tam orta məktəbin müəllimi Aynurə Dadaşova qalib olmuşdur. Siyəzən şəhər 6 saylı məktəb-liseyin müəllimi Tatyana Səlimova isə Respublika Prezidentinin Sərəncamı ilə «Azərbaycanın Əməkdar müəllimi» fəxri adına layiq görülmüşdür.

Ötən dərs ilində əsas vəzifələrdən biri Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda nəzərdə tutulan proqramın həyata keçirilməsindən ibarət olmuşdur. Təhsil Şöbəsində strategiyanın istiqamətlərinin hər bir təhsil işçisinə çatdırılması yönümündə müntəzəm iş aparılmışdır.

Aparılmış müşahidələr göstərmişdir ki, Siyəzən şəhər 1, 2, 3, 6 saylı, Gilgilçay qəsəbə, Yenikənd kənd tam orta məktəblərində bu məsələ daim diqqət mərkəzində saxlanılır, metodbirləşmələrdə təlimin müasir aktual problemlərinə aid mövzular ətrafında müzakirələr aparılır, «açıq dərs»lər təşkil edilir və burada gənc müəllimlərin iştirakı təmin olunur.

Məruzəçi vurğulamışdır ki, təhsil şöbəsi Azərbaycan Müəllimlər İnstitutu ilə daim əməkdaşlıq edir. Dərs ili ərzində 4 nəfər məktəb rəhbərləri və 24 nəfər müəllim müxtəlif kateqoriyalar üzrə AMİ-də təşkil edilmiş ixtisasartırma təhsilinə cəlb olunmuşdur. Bundan əlavə şəhər 1, 2, 3, 4 və 6 saylı tam orta məktəblərində müəllimlərin təkmilləşdirilməsi istiqamətində də səy göstərilmişdir. Lakin bu sahədə görüləsi işlər çoxdur. Növbəti dərs ilində bu sahəyə xüsusi diqqət yetiriləcəkdir.

Qabaqcıl təcrübənin öyrənilməsi ilə əlaqədar işlər çərçivəsində Siyəzən şəhər 3 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi İlhamə Sultanovanın təcrübəsi öyrənilmiş, metodiki şurada müzakirə edilmiş, təhsilyanı şuraya təqdim olunmuşdur.

Təhsilin bilavasitə nəticəsini əks etdirən, ən önəmli olan fakt ali məktəblərə qəbulun vəziyyətidir. Bu məsələyə də toxunan məruzəçi bildirdi ki, 2015-ci ildə rayonumuzun tam orta məktəblərini bitirərək attestat almış 353 nəfər məzundan 250 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. Ümumilikdə 106 nəfər məzun ali məktəblərə qəbul olmuşdur ki, onların 94 nəfəri bu ilki məzunlardır. Onların hamısı TQDK-nın xətti ilə ölkəmizin ali məktəblərinə, 2 nəfəri hərbi yönümlü ali məktəbə, 10 nəfəri isə xarici ölkələrin ali məktəblərinə qəbul olmuşlar. Qəbulda şəhər məktəbləri, Yenikənd, Balaca Həmyə və Zarat kənd tam orta məktəbləri fərqlənmişlər. 2015-ci ilin qəbulunda rayonun 6 nəfər məzunu 600-dən yüksək, 11 nəfər məzunsa 500-dən yüksək bal toplamışdır.

Təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılmasında rayonumuzun əksər pedaqoji kollektivlərini təmsil edən qabaqcıl müəllimlərin böyük əməyi olmuşdur. Vahid Məmmədov, Həqiqət İlyasova, Xoşbəxt Yaqubova, Xavər Yaqubova, Fəxrəddin İsmayılov, Vahab Əkbərov, Səidə Əhmədova, Seyidxanım Rzayeva, Ruhiyyə Hacıyeva, Şəfəq Əsgərova, Sədaqət Babayeva, Zeyvər Cəbiyeva, Mətanət Qədəşova, Səadət Əsədullayeva, Bahar Orucova, Samirə Hüseynova, Mehparə Tağıyeva, Səmayə Hüseynova, İlhamə Sultanova, Yasəmən Niftəliyeva, Nailə Cəbrayılova, Sima Əhmədova, Ənvər Əhmədov, Ülviyyə Məmmədova, Səbirə İsmayılova, Murad Feyziyev, Könül Musayeva, Əsmər Ağayeva, Elxan Məmmədli, Vüsal Rəcəbov, Natalya Şepilova, Yusif Yusifov, Tatyana Səlimova, Gülnaz Əlieva. Əlməmməd Nurməmmədov, Əmrağa Əliyev, Natiq Kərəmov, Məhbubə Həmidova, Məmmədağa Əfəndiyev, Nəsbulla Hüseynov, Könül Məmmədova, Nəsbulla Məhərrəmov, Vahid Binyətov və onlarla digər bacarıqlı müəllimlərin adlarını fəxrlə qeyd etmək olar.

Ancaq rayonun Böyük Həmyə, Eynibulaq, Sədan, Dağquşçu kənd tam orta məktəblərindən bir nəfər də olsun məzunun ali məktəbə daxil olmaması həmin məktəblərin rəhbərliyini ciddi düşündürməli, onları yeni dərs ilində daha gərgin və səmərəli işləməyə sövq etməlidir.

Sonra məruzəçi rayonun məktəbdənkənar tədris müəssisələrinin fəaliyyəti, gənclərin hərbi vətənrərvərlik tərbiysi, yeni məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər məsələlərə də toxunmuş, qarşıda duran başlıca məsələlərdən bəhs etmişdir.

Daha sonra çıxışlar olmuşdur. Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbin direktoru Nəcməddin Mürvətov, yeni dərs ilində ilk əmək fəaliyyətinə başlayan gənc müəllim Tamerlan Qurbanov çıxış edərək konfrans iştirakçılarına təbriklərini çatdırdılar, arzu və təkliflərini bildirdilər.

Sonda ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış tələbələrə və bir qrup müəllimə Fəxri fərmanlar təqdim edildi.

**R. MURADOVA.**

# SƏYYAR «ASAN» XİDMƏT RAYONUMUZDA

Artıq bir neçə gündür ki, səyyar «ASAN xidmət» rayonumuzun sakinlərinə səyyar formada xidmət göstərir. Yüzlərlə sakin səyyar xidmətdən yararlanmaqdadır. Bunu dövlətin öz vətəndaşlarına qayğı və diqqətinin ifadəsi kimi qiymətləndirən siyəzənlilər göstərilən müxtəlif xidmətlərin səviyyəsindən razılıq edirlər. Onlar əlavə xərc və vaxt itirmədən öz problemlərinin həllinə nail olurlar. Şəffaflığın təmin olunmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində «ASAN xidmət»i ən yüksək addım kimi dəyərləndirirlər.

Müxtəlif dövlət orqanları tərəfindən göstərilən çoxsaylı xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsi hamının ürəyincədir. Bu xidmətdən bəhrələnən hər kəs razılığını bildirir, xalqın rahatlığı üçün zəruri tədbirlər görən dövlətimizə, onun başçısı möhtərəm İlham Əliyevə minnətdarlığını bildirir.

**«ÇIRAQ»**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Cəlalov Mirələm Rahim oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Camalov Elmir Eldar oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Yusifov Bəhram İmran oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yunusova Güllər Cabir qızı | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktoru | Abdullayev Ramsin Nəriman oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Eyvazov Vahid Nəcəfağa oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdir əvəzi | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 31 avqust 2015-ci il tarixli sərəncamı ilə 1 noyabr 2015-ci tarixdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə əlaqədar «Sərbəst toplaşmaq azadlığı haqqında» Qanuna uyğun olaraq Siyəzən rayonu ərazisində açıq və qapalı yerlər müəyyənləşdirilmişdir.**

1. **Açıq yer-Siyəzən şəhər stadionu**
2. **Qapalı yer- Siyəzən rayon Mədəniyyət Mərkəzi.**

# 54 SAYLI ŞABRAN-SİYƏZƏN SEÇKİ DAİRƏSİNİN SİYƏZƏN RAYONU ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN DİSLOKASİYASI

| Seçki məntəqələrinin nömrəsi | Seçki məntəqələrinin yerləşdiyi yer | Binanın və otağın nömrəsi | Seçki məntəqəsinin hüdudları (seçki məntəqəsi, yaşayış məntəqəsinin bir hissəsini əhatə etdikdə evlərin nömrələri nəzərə alınmaqla küçələrin adları göstərilir) | Məntəqə seçki komissiyası sədrinin soyadı, adı, atasının adı | İş yeri, tutduğu vəzifə | Seçki məntəqəsinin xidməti telefonu |
|---|---|---|---|---|---|---|
| 46 | Siyəzən şəhəri Nizami küçəsi, 1 saylı tam orta məktəbin binası | | Siyəzən şəhərinin H. Əliyev küçəsi 95-149 tək nömrəli evlər, M. Müşfiq, Babək 57-84 №-li evlər, Nizami, B. Səfəroğlu, C. Cabbarlı küçələri | Mürvətov Nəcməddin Tacı oğlu | Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru | 050 5518915 |
| 47 | Siyəzən şəhəri H. Əliyev küçəsi 4№-li Yol İstismarı İdarəsinin binası | | Siyəzən şəhərinin H. Əliyev küçəsi 152-204 cüt №-li evlər, F. Bayramov 22-51, Vidadi 40-64, A. Qaradağlı 47-77, Sabir 25-130 №-li evlər, F. Əliməmmədov, M. Ə. Rəsulzadə, Ə. Vahid, Ə. Cabbarov, 28 May və D. Turabov küçələri | Bağırov Mehman Heybətağa oğlu | Siyəzən şəhəri Su İdarəsində mühəndis | 051 9576247 |
| 48 | Siyəzən şəhəri Babək küçəsi, 3 saylı tam orta məktəbin binası | | Siyəzən şəhərinin H. Aslanov 1-29 (1, 2, 3, 4 №-li dalanlar daxil olmaqla), İ. Qayıbov 1-49, M. Zəkiyev 1-26 №-li evlər, Fizuli, A. Mustafayev və S. Xeyrullayev küçələri | Yarıyev Rafiq Yarməmməd oğlu | Siyəzən şəhəri 3 saylı tam orta məktəbin direktoru | 050 6440878 304-00-11 |
| 49 | Siyəzən şəhəri H. Əliyev küçəsi, 6 saylı tam orta məktəbin binası | 92 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 41,43-93 tək №-li, 88, 96-150 cüt №-li evlər, Vaqif, S. Dağlı küçələri, F. Bayramov 1-21, Vidadi 1-38, A. Qaradağlı 1-46, Sabir 1-24, M. Zəkiyev 27, Babək 49 №-li evlər. | Əliyev İmamcan Xancan oğlu | Siyəzən şəhəri bələdiyyəsində mühəndis | 070 3024287 304-26-06 |
| 50 | Siyəzən şəhəri T. İsmayılov küçəsi, 2 saylı tam orta məktəbin binası | 5a | Siyəzən şəhərinin T. İsmayılov küçəsi 5-16, 18, 44, 50, H. Əliyev küçəsi 15, 17, 19, 21, 23, 25, 27, 29, 31 və 33 №-li çoxmərtəbəli evlər, NQÇİnin korpusları daxildir. | Ağayev Namus Baladadaş oğlu | Zarat kənd tam orta məktəbinin müəllimi | 055 7375392 |
| 51 | Siyəzən şəhəri Şəhriyar küçəsi, Qızıl-Burun Dəmir Yolu stansiyasının idarə binası | 4 | Siyəzən şəhərinin Babək 1-44 №-li evləri, Şəhriyar, Xətai, S. Vurğun və N. Nərimanov küçələri daxildir. | Dadaşov Sarvan Hacı oğlu | İşləmir | 050 4739373 |
| 52 | Siyəzən şəhəri H. Əliyev küçəsi, Siyəzən Enerji satışı və istismarı idarəsinin binası | 11 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 4-86 cüt №-li evlər, 9, 11A, 13 №-li evlər, H. Aslanov küçəsi 30-62, İ. Qayıbov küçəsi 50-93 №-li evlər, 20 Yanvar, B. Dəmirov və S. Baxşıyev küçələri | Əkbərov Babək Rizvan oğlu | Siyəzən şəhəri Neftçi İdman Sağlamlıq Mərkəzinin məşqçi-müəllimi | 050 6703453 304-22-68 |
| 53 | Siyəzən şəhəri T. İsmayılov küçəsi, Qazma sexinin binası | 47a | Siyəzən şəhərinin T. İsmayılov küçəsi 19-40, 47-49, 51, 52, 53 və H. Əliyev küçəsindəki 7 №-li binalar | Abbasov Elçin Şükür oğlu | Siyəzən Qazma Ekspedisiyası İdarəsində anbardar | 0503414168 0706038208 304-23-54 |
| 54 | Siyəzən şəhəri H. Talıbov küçəsi, 4 saylı tam orta məktəbin binası | 8 | Siyəzən şəhərinin H. Talıbov küçəsi | Əsədullayev Nazim Xanlar oğlu | Siyəzən şəhəri 4 saylı tam orta məktəbin müəllimi | 050 4260410 304-07-06 |
| 70 | Siyəzən şəhəri H. Talıbov küçəsi 5, 4 saylı tam orta məktəbin binası | | Siyəzən şəhərinin Su kəməri yaşayış sahəsi, A. Zahirov, Q. Qoçəliyev və B. Bayramov küçələri | Məmmədov Fərid Muxtar oğlu | "Siyəzənneft" NQÇİ-də şöbə rəisi | 055 2457736 |
| 55 | Siyəzən rayonu Yenikənd kənd tam orta məktəbin binası | | Yenikənd kəndi | Hüseynov Mirabtalıb Məhəmməd oğlu | Siyəzən rayonu Yenikənd kənd tam orta məktəbinin direktoru | 050 3598665 306-30-71 |
| 56 | Siyəzən rayonu Yenikənd Gil-gilçay stansiyası. ümumi orta məktəbin binası | | Gil-gilçay Dəmir yolu stansiyasının alt və üst hissəsindəki evlər və Kolanı kəndi daxildir. | Qədəşov Xalidşah Seyidşah oğlu | Siyəzən şəhəri 2 saylı tam orta məktəbin müəllimi | 050 5612967 304-27-90 |
| 57 | Siyəzən rayonu Tuğay kənd ümumi orta məktəbin binası | | Tuğay kəndi | Ağayarov Həsənağa Əmir oğlu | Siyəzən rayonu Tuğay kənd ümumi orta məktəbinin müəllimi | 050 6890433 |
| 58 | Siyəzən rayonu Gil-gilçay qəsəbəsi tam orta məktəbinin binası | | Gil-gilçay qəsəbəsi | Baxşıyev Samir Vadim oğlu | Siyəzən rayonu Gil-gilçay qəsəbəsi tam orta məktəbinin direktoru | 050 3543776 304-20-23 |
| 59 | Siyəzən rayonu Böyük Həmyə kənd tam orta məktəbinin binası | | Böyük Həmyə kəndi | İsayev Abdulla Əjdər oğlu | Siyəzən rayonu Yaşıllaşdırma idarəsində sahə rəisi | 050 4979150 |
| 60 | Siyəzən rayonu Balaca Həmyə kənd tam orta məktəbinin binası | | Balaca Həmyə kəndi | Kərimov Vüqar Bayramqulu oğlu | Siyəzən rayonu Balaca Həmyə kənd tam orta məktəbinin direktoru | 050 3948030 |
| 61 | Siyəzən rayonu Beşdam kənd ümumi orta məktəbinin binası | | Beşdam, Qara Siyəzən, Nardaran və Dərəzarat kəndləri | Səfərov Əbülfərz Səfərəli oğlu | Siyəzən rayonu Beşdam kənd ümumi orta məktəbinin müəllimi | 050 6426846 |
| 62 | Siyəzən rayonu Zarat kənd tam orta məktəbinin binası | | Zarat, Qalaşıxı və Çandahar kəndləri | Qasımov Seyfulla Eynulla oğlu | Siyəzən rayon Baytarlıq İdarəsinin müdiri | 050 6236896 |
| 63 | Siyəzən rayonu Eynibulaq kənd tam orta məktəbinin binası | | Eynibulaq kəndi | Abbasov İlyas Balamirzə oğlu | Siyəzən rayonu Eynibulaq kənd tam orta məktəbinin müəllimi | 051 7626164 304-43-17 |
| 64 | Siyəzən rayonu Sədan kənd tam orta məktəbinin binası | | Sədan, Çarxana, Saqlovcan və Mükül Qazma kəndləri | Səfərov Namik Şahbala oğlu | Siyəzən rayonu Sədan kənd tam orta məktəbinin direktoru | 050 7199436 |
| 65 | Siyəzən rayonu Məşrif kənd tam orta məktəbinin binası | | Məşrif, Qalaaltı, Daşlı Calğan, Orta Calğan və Qərəh kəndləri | Seyidov İlqar Məhyəddin oğlu | Siyəzən rayonu Məşrif kənd tam orta məktəbinin direktoru | 051 8843269 304-05-71 |
| 66 | Siyəzən rayonu Qozağacı kənd kitabxanasının binası | | Qozağacı kəndi | Cümşüdov Nurəddin Abutalıb oğlu | Siyəzən rayonu Qozağacı kənd ümumi orta məktəbinin direktoru | 050 4303798 |
| 67 | Siyəzən rayonu Dağ Quşçu kənd tam orta məktəbinin binası | | Dağ Quşçu və Əlməkolu kəndləri | Rəhimov Mehman Məmmədmusa oğlu | Siyəzən Broyler fabrikində briqadir | 051 8843452 |
| 68 | Siyəzən rayonu Yanıq Ələzkənd ümumi orta məktəbinin binası | | Yanıq Ələz, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Ərziküş, Köhnə Quşçu və Günövşə kəndləri | Hüseynov Tofiq Saməddin oğlu | Siyəzən rayon Yanıq Ələz kənd tam orta məktəbinin direktoru | 050 5663769 |

**Dairə seçki komissiyasının sədri: Saleh Təhməzov**

**Katibi: Qoşqar Mikayılov** **Katibi: Kəmalə Muradəlizadə**

# SİYƏZƏN TƏHSİLİ BARƏDƏ DÜŞÜNCƏLƏRİM

Ənənəvi olaraq, yerinə yetirilən hər bir işin müvəffəqiyyət dərəcəsi sonda müəyyən meyarlarla dəyərləndirilir. Və tutduğu xəttin doğruluğuna inandıraraq, bu işdə hər kəs özünü daha haqlı sayır.

Bəs meyarlar hansılardır? Fikir müxtəlifliyini nəzərə alsaq, sayları şübhəsiz, çoxdur. Əsas məsələ meyarın kim tərəfindən irəli sürülməsindədir. Hər halda çoxluq adlı bir məfhum var ki, hər birimiz onun nəticələri ilə razılaşmaq zorundayıq.

Hər tədris ilinin sonunda keçilən yola qiymət verilir, qarşıya yeni vəzifələr qoyulur. Analizlər, araşdırmalar dövrü başlayır. Ən müxtəlif rəylər eşidilir. Kimi məktəbin uğurunu ali məktəblərə qəbul olunanların sayı ilə, kimi məktəbin idman sahəsində qazandığı göstəricilərlə, kimi daxili nizam-intizamın yüksəkliyi ilə, kimi şagirdlərinin müxtəlif bilik yarışmalarında əldə etdiyi müvəffəqiyyətlərlə qiymətləndirir.

Lakin məlumdur ki, çoxluğun da özünə məxsus mövqeyi olur. Onların nəzərincə, məktəbin uğuru ali məktəblərə daha çox məzun verməsi ilə müəyyən olunmalıdır. Əlbəttə, bir daha qeyd edim ki, bütün yanaşmalar nisbi məna daşıyır. Hansısa məqamlarla razılaşmamaq olar. Amma, bunu da qəbul etməyə bilmərik ki, istər şagirdin, istər valideynin və istərsə də müəllimin əsas hədəfi məzunun ali məktəbə daxil olmasıdır. Və bu proses, əsasən, üç tərəfin-müəllim, şagird və valideynin birgə zəhmətinin yekunu fonunda gedir. Lakin şəksiz, həlledici amilin müəllim tərəfindən yerinə yetirildiyini qəbul etməliyik.

Bu mənada Siyəzən təhsilinin hazırkı mövcud durumuna nəzər yetirdikdə bəzi maraqlı, həm də əhəmiyyət daşıyacaq məsələlər önə çıxır və araşdırma tələb edir. Qeyd etdiyim kimi, yekun nəticə üç tərəf arasındakı qarşılıqlı münasibətlərlə formalaşır. Həlledici rol isə müəllimin üzərinə düşür. Bu sarıdan bizdə vəziyyət necədir?

Əgər söhbət konkret bugünkü gündən gedirsə, narahatçılığa lüzum yoxdur. Bütün ixtisaslar üzrə bir çox rayonların həsəd aparacağı hazırlıqlı, bilikli müəllimlərimiz vardır. Bəs elə isə qeyd etdiklərimin mənası nə? İş burasındadır ki, həmin müəllimlərin tam əksəriyyətinin yaşları 60-dan yuxarıdır. Yeni gələn müəllimlərin hazırlıq səviyyəsi rəqabətə dözümlü deyil. Bu fikir həmin qabaqcıl müəllimlərin rəyidir. Elə isə çıxış yolu nədədir? Şəxsən mən bu suala cavab verməkdə çətinlik çəkdiyim üçün onu zamanın ixtiyarına buraxıram. Necə olacaq? Kim bilir... hər halda biz nikbinliyimizi qorumalıyıq.

Qabaqcıl müəllimlərimiz isə özünə qarşı həmişə qayğı umur. Hətta tərifnamə ilə də olsa. Hər tədris ilinin əvvəlində keçilmiş yola nəzər salınır, uğurlar və çatışmazlıqlar qeyd olunur, qarşıdakı vəzifələrdən danışılır və müəyyən təltiflər edilir. Bəzən məndə elə bir təəssürat yaranır ki, verilən təltiflər «ötən il bu müəllimə tərifnamə verildiyi üçün bu il başqasına verək» prinsipi ilə təqdim olunur. Müəllimlər üzünün ifadəsi ilə də olsa, bu narazılığı gizlətməyib nəzərə çapdırırlar. Həmin müəllimlər tərif istəyir. Düzdür, belə olan halda digər müəllimlərdə qıcıq yaranmış olur. Qoy olsun. Bəlkə üzərində daha çox çalışar.

Mükafat stimuldur. O yalnız ən yaxşılara verilməlidir. Əks halda ədalətlilik kimi prinsiplər onların təsəvvüründə darmadağın edilmiş olur. Əgər müəllim tərifə layiq işləyirsə, qoy mükafatı da hər il o alsın.

İstər şəhər məktəblərinin, istər kənd məktəblərinin məzunlarının tam əksəriyyəti şəhər məktəblərində çalışan çox kiçik bir qrup müəllimin repetitorluğu sayəsində ali məktəblərə daxil olurlar. Kənd məktəblərimizdə belə müəllimilərin sayı həddindən ziyadə azdır.

Burada bir haşiyə çıxmaq istəyirəm. Məktəbdə əldə edilən biliyin üstünlüyünü hər zaman qeyd edirəm. Bir qayda olaraq, keçilən mövzunun nəzəri əsasları məktəbdə daha fundemantal qaydada şərh olunur. Sadəcə, test imtahahınında belə nəzəri, güclü analiz tələb edən məsələlərə yer verilmədiyi üçün şagirdlər standart biliklər verən repetitorların yanına can atırlar.

**İ. İLYASOV.**

## QURBAN BAYRAMINIZ MÜBARƏK!

Bütün dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan Qurban bayramı ölkəmizdə də hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd edilir. Həmişə olduğu kimi, bayram günlərində vətən torpaqlarının müdafiəsi uğrunda döyüşlərdə həlak olmuş şəhidlərimizin xatirəsi böyük ehtiramla yad edilir, dindarlar dini ayinləri yerinə yetirir, qurbanlar kəsilir. İnsanlar qurbanlar kəsməklə yanaşı, Tanrıdan dövlətimizin tərəqqisi, Qarabağımızın əbədiliyi ilə bağlı dualar edirlər.

Rayonumuzda da müqəddəs Qurban bayramı təntənə ilə qeyd olunmuşdur. Əziz oxucularımız! Biz də hər birinizi mübarək Qurban bayramı münasibətilə təbrik edirik. Sizlərə xoş güzəran, əmin-amanlıq, həyatın ən şirin neməti olan can sağlığı arzu edirik.

**«ÇIRAQ»**

## EY VƏTƏN OĞLU

Tanrıya şükür elə hər bir anında
Tale yazısı var insan alnında.
Düşmənin əsgəri heçdi yanında,
Sərhəddə ayıq ol, ey vətən oğlu!

Düşmən sərhəd boyu qapır, hey çapır
İgid əsgərlər onları yerində çapır
İnsan öz arzusunu torpaqda tapır
Torpaq müqəddəsdir, ey vətən oğlu!

Ömrünün baharı düşmüş borana,
Yurdunda səsləyir ana oğlunu.
Deyir qələbə ilə qayıt yanıma
Sərhəddə ayıq ol, ey vətən oğlu!

Cəbhə bölgəsində zarafat olmaz
Bu ömür yoludur, heç kimə qalmaz.
Kiçik bir səhvdən də qurtarmaq olmaz
Sərhəddə ayıq ol, ey vətən oğlu!

**Məşədi Nəcəf Bayramov.**

*20 Sentyabr-«Neftçilər günü»dür*

# İKİQAT SEVİNC



20 Sentyabr «Neftçilər günü» ərəfəsində «Siyəzənneft» NQÇİ-yə xoş xəbər gəldi. Bayram sevincinə xüsusi bir sevinc qatan bu xoş xəbər hamının ürəyincə oldu. Belə ki, adı çəkilən müəssisənin baş energetiki Əlibala Mövlud oğlu İbrahimov «Neftçilər Günü» peşə bayramı ilə əlaqədar respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Fəxri Fərmanı ilə təltif edilərək, 1000 manat məbləğində mükafatlandırılmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayevin imzaladığı Fəxri Fərmanın sevincini bizimlə bölüşən müsahibimiz nələri söylədi? Əlibala İbrahimov söhbət əsnasında xüsusi vurğuladı ki, ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli neft strategiyasının bəhrələrini zaman keçdikcə daha aydın görürük. Ölkəmizin iqtisadi qüdrətinin, beynəlxalq nüfuzunun, xalqımızın rifahının qarantı olan bu qalibiyyətli konsepsiya Azərbaycanın dinamik inkişafı ilə paralel irəliləyir.




Daha sonra «Əsrin müqaviləsi»nin ölkəmizin həyatındakı əhəmiyyətindən, neft-qaz sənayesində aparılan uğurlu islahatlardan, dövlət səviyyəsində neftçi əməyinə göstərilən diqqət və qayğıdan söz açdı. Əməyinin yüksək qiymətləndirilməsindən məmnunluğunu bildirdi. «Bu, təkcə mənim deyil, həm də bütövlükdə fədakar neftçilərimizin, «Siyəzənneft» NQÇİ-də çalışan həmkarlarımın əməyinə verilən yüksək dəyərdir»-söylədi.

**R. MURADOVA.**

# PAYIZ ÇAĞIRIŞINA HƏSR OLUNMUŞ «VƏTƏNİN MÜDAFİƏSİNƏ HAZIRAM»

Siyəzən rayon Gənclər və İdman idarəsi tərəfindən 29 sentyabr 2015-ci il tarixdə şəhər stadionunda X-XI sinif şagirdləri arasında payız çağırışına həsr olunmuş «Vətənin müdafiəsinə hazıram» poliatlon çoxnövçülüyü üzrə rayon çempionatı təşkil olunmuşdur.

Yarışa şəhər və kənd tam orta məktəb komandalarının tərkibində 70-dən çox şagird cəlb edilmişdir. Çempionatın keçirilməsi çağırışyaşlı gənclərin hərbi hazırlığının artırılması, onların vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi, həmçinin gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi daşımışdır. Yarış ərzində komandalar çempionatın proqramına daxil olan 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma növləri üzrə mübarizə aparıblar.



Yarışın yekun nəticəsinə əsasən şəhər 2 saylı tam orta məktəbin komandası I yeri tutaraq payız çağırışına həsr olunmuş «Vətənin müdafiəsinə hazıram» poliatlon çoxnövçülüyü üzrə rayon çempionatının qalibi oldu. Yenikənd kənd tam orta məktəbin komandası II, şəhər 1 saylı tam orta məktəbin komandası isə III yeri qazandı.

Tədbirin sonunda yer tutan komandalar rayon Gənclər və İdman idarəsi tərəfindən fəxri fərmanlarla mükafatlandırıldılar.

**Nadir MƏMMƏDOV, rayon Gənclər və İdman idarəsinin rəisi.**

# RAHAT YOL BAŞLICA ŞƏRTDİR

Neçə illər idi ki, yol sarıdan çətinlik çəkirdik. Asfalt örtüyü tamamilə sıradan çıxmış, saysız-hesabsız çala-çuxur yaranmışdı. Xüsusilə payız-qış aylarında küçəboyu gediş-gəliş xeyli çətinləşirdi. Ən çox əziyyət çəkənsə məktəbli balalarımız idi. Payızın yağışında, qışın palçığında onları məktəbə aparıb-gətirmək sözün əsl mənasında problemə çevrilmişdi.

İndi budur, küçəmiz xeyli dəyişib. Belə ki, məhəllə daxili yollar bütün küçə boyu tam asfaltlanıb. İndi gediş-gəliş xeyli asanlaşıb. Abad və rahat yoldan hamı razıdır. Əvvəllərdə olduğu kimi, əzab-əziyyət çəkməyəcəyik.

Küçəmizin abadlaşdırılmasında əməyi olan hər bir kəsə «çox sağ olun» demək istəyirik.

**Hörmətlə: Siyəzən şəhəri, Xətai küçəsinin sakinləri.**

## *TƏBRİK EDİRİK!*



*Yeni dərs ili başlandı. Şəkildə gördüyünüz bu gözəl balamız-Fidan Quliyeva da əlinə çanta alıb bütün yaşıdları kimi birinci sinfə getdi. Böyük həvəslə məktəbə hazırlaşan Fidanın hazırcavablığı, möhkəm yaddaşı, əməksevərliyi deməyə əsas verir ki, o, dərslərini də əla qiymətlərlə oxuyacaq, doğmalarını həmişə sevindirəcəkdir.*

*Fidanı təbrik etdilər babaları Oqtay, Kamal, nənələri İzzət, Şəhla, atası Elşən, anası Günay, qardaşı Tuncay. Onların təbrikinə Reyhan müəllimə də qoşulur.*

Redaktor İlyas İLYASOV

Təsisçilər: Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır Qeydiyyat № 314 Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 3127
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83